# Səssiz dünyanın sakinləri

**Bura nitq və eşitmə məhdudiyyəti olan insanların dünyasıdır. Səssiz görünən, amma içində min bir səs, duyğu, dil daşıyan bir dünya… Burada olduğumuz müddətdə çox söhbətlər etdik, ünsiyyət qura bildik, amma hər kəs öz dilində danışdı... Çünki səssiz dünyanın səsini eşitmək üçün qulaq deyil, ürək lazımdır...**

**Bura 3 nömrəli respublika xüsusi internat məktəbidir...**





## Ən böyük dəstəyi dövlət verir

Sağlamlıq məhdudiyyətli insanların həyatını asanlaşdırmaq, onların cəmiyyətə inteqrasiyasına dəstək olmaq hər bir dövlətin, fərdin vəzifəsidir. Ölkəmizdə də bu sahə daim diqqət mərkəzindədir, təhsil, səhiyyə, reabilitasiya, idman, məşğulluq imkanlarının genişləndirilməsi üçün ardıcıl addımlar atılır.

1967-ci ildən fəaliyyət göstərən 1 və 3 nömrəli respublika xüsusi internat məktəbləri 2012-ci ildə birləşdirilərək, onların bazasında sağlamlıq imkanları məhdud uşaqlar üçün 3 nömrəli respublika xüsusi internat məktəbi yaradılıb. Məktəbin direktoru Tariyel Əkbərovun sözlərinə görə, məktəbdə 360 nəfəri oğlan, 182 nəfəri isə qız olmaqla 542 şagird təhsil alır. Bu şagirdlərdən 162 nəfəri internat məktəbində yaşayır, qalanları isə gündüz dərsə gəlib-gedirlər. Oğlanlarla qızlar ayrı mərtəbələrdə qalırlar. Hər mərtəbədə 2 gecə dayəsi olur.

Məktəbdə uşaqların təlim-tərbiyəsi ilə 167 müəllim, 161 tərbiyəçi məşğul olur. Təhsil müddəti 11 il olan məktəbdə şagirdlər ümumi orta təhsil səviyyəsi üzrə tədris proqramları həcmində təhsil alırlar. Hər sinifdə maksimum 8 şagird oxuyur. Təxminən 10 ildir burada koxlear siniflər də fəaliyyət göstərir. İmplant əməliyyatı olunmuş uşaqlara xüsusi proqram üzrə dərslər keçirilir. Təhsil müəssisəsindəki şagirdlər öz istəklərinə uyğun olaraq dərsdən sonra müxtəlif dərnəklərə yazılaraq, burada qabiliyyətlərini inkişaf etdirirlər.

"Ən böyük dəstəyi bizə dövlət verir. Şagirdlərimiz bütün dərs ləvazimatları və geyim formaları ilə təmin olunurlar. Yeməkxana isə internat şagirdlərinə deyil, bütün uşaqlara açıqdır. Heydər Əliyev Fondunun dəstəyini xüsusi vurğulamaq istəyirəm. Fondun vitse-prezidenti Leyla Əliyeva mütəmadi məktəbi ziyarət edir, bayramlarda uşaqların yanında olur. Hətta sonuncu gəlişində məktəbimizə avtobus da hədiyyə edib. O avtobusla iyunun 1-də uşaqlarımıza unudulmaz bir gün yaşatdıq", - deyə direktor bildirir.

## Həyata açılan yollar

Məktəblə tanışlıq zamanı siniflərdən birinə daxil oluruq. On birinci sinifin rəsm dərsidir. Təsviri incəsənət müəllimi Gülnarə Nəzirova artıq 25 ildir burada çalışır. Onun bu məktəbi seçməsinin əsas səbəbi iki anadangəlmə nitq və eşitmə məhdudiyyətli qızının olmasıdır. Salyandakı məktəblərin birində rəsm müəllimi olan Gülnarə xanım övladlarının müvafiq təhsil alması üçün Bakıya köçüb. Qızları məktəbdə oxumağa başlayandan sonra özü də birillik defektologiya kursunu keçərək burada çalışmağa başlayıb. Onun sözlərinə görə, hər iki qızı məktəbi bitirdikdən sonra kollecə qəbul olub, sonra isə burada işlə təmin olunublar. Onlardan biri tərbiyəçi müəllimə, digəri isə texniki işçidir. Nitq və eşitmə məhdudiyyətli uşaqların çox istedadlı və həssas olduğunu bildirən Gülnarə Nəzirova onların bacarıqlarını üzə çıxarmaq üçün individual yanaşmanın vacibliyini vurğulayır. Şagirdlər rəsm dərsində sulu və yağlı boya ilə işləyir, kətan parça, şüşə və gil qablar üzərində rəsmlər çəkir, müxtəlif əl işləri hazırlayırlar. Xüsusi istedadlı uşaqlar isə dərsdən sonra məktəbin nəzdində olan rəsm dərnəklərinə gedir, burada kollecə qəbul üçün qabiliyyət imtahanına hazırlaşırlar.

Daha sonra maraqla bizi izləyən Nahidəyə yaxınlaşırıq. On iki yaşından rəsmlə məşğul olan Nahidə kollecə qəbul olub rəsm müəllimi olmaq istəyir. Məktəbdə qabiliyyət imtahanı ilə yanaşı, buraxılış imtahanına da hazırlaşmaq üçün müəllimlərin dəstək olduğunu bildirir. Nahidə inklüziv təhsil alsın deyə ailəsi məktəbə yaxın əraziyə köçüb.

Sinifdən çıxmağa hazırlaşanda Gülnarə müəllimin qızı Zümrüd bizə yaxınlaşır. Məktəbdə tərbiyəçi kimi işləyən Zümrüd uşaqların həm sevimli müəllimi, həm də stimul mənbəyidir. Onlar da böyüyəndə müəllimləri kimi təhsil alıb, peşəyə yiyələnmək istəyirlər. "Hər gün saat 1-5 arası uşaqlarla məşğul olur, ev tapşırıqlarına kömək edirəm. Eyni dünyaya aid olduğumuz üçün məni rahat qəbul edib, ünsiyyət qururlar. Dörd ildir ailəliyəm. Həyat yoldaşım da mənim kimi nitq və eşitmə məhdudiyyətlidir. O da burada bərbər kimi çalışır. Müəssisəmizin müsbət tərəflərindən biri də odur ki, burada işləmək üçün bizə şərait yaradılır. Əksər iş yerləri ünsiyyət qura bilmədiyimiz üçün bizi işlə təmin etmək istəmirlər.

















Bu məktəb isə mənim evimdir", - deyir Zümrüd.

## Məktəbi bitirsələr də...

Məktəbin səs kabinetlərində kiçikyaşlı uşaqlarla fərdi, yuxarı sinif şagirdləri ilə isə qrup şəklində məşğul olunur. Defektoloq-loqoped Ülviyyə Qurbanova bildirir ki, 20 dəqiqəlik məşğələlərdə hər bir uşağın fərdi xüsusiyyətləri, inkişaf səviyyəsi nəzərə alınır. Şagirdlər bəzən dərsarası, bəzən isə dərsdən sonra səs kabinetlərində məşğul olurlar. "S", "ş" kimi hiss edilən səslər asanlıqla qavranılır. Ən gec öyrənilən səs isə "r" səsidir.

Azərbaycan dili və ədəbiyyat dərslərini tədris edən Yeganə Bəkirova 41 ildir bu məktəbdə çalışır: "Universiteti bitirdikdən sonra Moskvada birillik kursda işarət dili öyrənmişəm. Məktəbdə çalışmağa başlayanda şagirdlər yatılı qalmırdılar. Sonradan rayondan gələn uşaqların çətinliyi nəzərə alınaraq, təhsilin əlçatanlığı üçün internat tipli məktəbə çevrildi. Şagirdlərimiz 11 il oxuyub 9 illik attestat alırlar. Daha sonra kollec və peşə məktəblərinə yönəlirlər. Təhsillərinə davam etmək istəyənlər universitetə qəbul olurlar. Azərbaycan dilini, qrammatikasını öyrənmək onlar üçün xüsusilə vacibdir. Artıq sərbəst yazmağı öyrənən uşaqlar işarət dili bilməyən valideynləri ilə daha rahat ünsiyyət qurur, fikirlərini yazmaqla izah edir, hara getdiklərini, harada olduqlarını telefonla yazıb məlumat verirlər", - deyə bildirir.

Yeganə Bəkirova deyir ki, şagirdlərinin hər biri onunçun əzizdir, dəyərlidir. Məktəbi bitirən şagirdlərinin əksəriyyəti illər keçsə də, daim əlaqə saxlayır, müəllimləri ilə hal-əhval tuturlar. Bəziləri isə illər keçsə də, gözünün önündə, himayəsindədir. Kamil Məhərrəmli kimi... Ağlı, tərbiyəsi, səmimiyyəti ilə seçilən, hamının sevimlisi olan Kamil artıq 27 yaşındadır. Nitq və eşitmə məhdudiyyətli gənc müəllimlərinin dəstəyi ilə özünü tapıb. Məktəbi, kolleci bitirib, daha sonra burada texniki işçi kimi çalışmağa başlayıb. Kamilin növbəti hədəfi isə rəsm müəllimi kimi fəaliyyət göstərmək, bu yolda son pillə olan MİQ imtahanlarında yüksək nəticə əldə etməkdir.

Koxlear sinfi ilə də tanış olduq. "Sinifdəki 6 uşaqdan dördü koxlear əməliyyatı olunub, digərləri isə dinləmə cihazından istifadə edirlər. Dərslərimizdə işarət dilindən istifadə olunmur. Digər məktəblərdəki dərslərdən, demək olar ki, seçilmir. Sadəcə olaraq, anlamaları yaşlarına nisbətən zəifdir", - deyə müəllim Aytən Hüseynova bildirir.

Doqquzyaşlı Hüseyn sinfin fəallarındandır. Məktəbi, dostlarını çox sevir, üzgüçülüklə məşğul olur. Əməliyyat sayəsində eşitmə qabiliyyəti yaxşı olsa da, sağlamlıq məhdudiyyəti olmayan yaşıdlarıyla ünsiyyət qurmağı sevmir. Qaşlarını çataraq "Onlar çox sürətlə danışırlar, başa düşmürəm", - deyir balaca Hüseyn.

Sinifdən çıxanda qonşu otaqdakı hərəkətlilik diqqətimizi çəkir. 3c sinfinin dərsi idi. Bu sinfin maraqlı tərəfi odur ki, şagirdlərinin hamısı tamamilə eşitmə məhdudiyyətli olsa da, dodaq oxuyub, danışa bilirlər. Həyatında heç vaxt səs eşitməmiş bu uşaqların nitqlərinin səlis və aydın olması isə müəllimlərinin zəhmətidir.

Mahirə Daşdəmirova artıq iyirmi beş ildir bu məktəbdə çalışır. Təvazökarlıq edən müəllim deyir ki, bu yalnız onun və səs müəlliminin deyil, həm də valideynlərin zəhmətinin bəhrəsidir: "Sağlamlıq məhdudiyyətli uşaqlarla işləmək komanda işidir. Güclü, zəhmətkeş valideynlərlə çox yaxşı nəticələr əldə edilir. Bu isə bizi daha da motivasiya edir, həvəsləndirir. Bu balaların hamısı bizim üçün əzizdir. Sinifdəki 8 uşaqdan ikisi, Hüsən və Ruxan internatda qalır. Hüsən sinfin ən fəalıdır. Öz deyimiylə "mükəmməl" oxuyur, leqo oynamağı xoşlayır, böyüyəndə sürücü olmaq istəyir. Adilə və Yusif isə bacıqardaşdır. Valideynlərinin hər ikisi, bacı-qardaşları da eşitmə məhdudiyyətlidir. Ata-anaları da bu məktəbdə təhsil aldıqları üçün uşaqlar işarət dilini daha yaxşı bilirlər".

Şəhla Qəribovanın sinif rəhbəri olduğu 2c sinfi də koxlear sinifdir. O deyir ki, uzun illərdir implantlı şagirdlərlə işləyir, elə məktəbdəki ilk belə sinif də 15 il öncə ona həvalə olunub: "Koxlear siniflə işləmək ilk baxışdan asan görünsə də, əslində, olduqca çətindir. Əməliyyatdan sonra uşaqların anlama, qavrama qabiliyyəti çətinləşir. Valideynlər düşünürlər ki, əməliyyatdan sonra onların uşaqları yaşıdlarından seçilməyəcək. Amma belə olmur. Yaxşı nəticə əldə etmək üçün minimum 4-5 il lazım olur. O da əgər əməliyyat 3 yaşına kimi olsa. Yaş artdıqca nəticə almaq da çətinləşir. Yalnız mütəmadi və davamlı təlimlərlə nəticə əldə etmək olur. Valideynlərin uşaqları olduğu kimi qəbul etmələri də önəmlidir. Əməliyyatlı uşaqların valideynləri istəmirlər ki, onlar işarət dilini öyrənib cəmiyyətdə seçilsinlər. Amma unudurlar ki, nə qədər istəsələr də onlar bu dünyanın uşaqlarıdır".

Vəfa Baxışovanın oğlu Tunar da bu sinifdə oxuyur. Tunar eşitmə qabiliyyətini təxminən iki yaşında sağlamlıq problemi nəticəsində itirib. Dodaq oxuya bildiyi və söz bazası olduğu üçün valideynləri bir müddət eşitmə məhdudiyyəti olduğunu hiss etməyiblər. Bacıları ilə rahat ünsiyyət qururmuş . Həm də Tunarın doğuşdan ciddi sümük problemi olduğu üçün, eşitməsinin itməsi diqqət cəlb etməyib. Vəfa xanım deyir ki, ikinci sinifdə oxumasına baxmayaraq, övladında çox irəliləyiş var, tanıdıqları insanlarla artıq daha rahat ünsiyyət qurur.

Şagird və valideynlərlə sağollaşıb qapıya tərəf yönəlirik. Səssiz dünyanın sakinləri heç də yaşıdlarından, bizdən az sevinmir, az xəyal qurmurlar. Onlar, sadəcə, başqa bir dildə danışırlar. O dili anlamaq üçün isə onlara, sadəcə, dəstək olmaq lazımdır.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*